**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**
**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TƏSNİFATI**

# VALYUTALAR TƏSNİFATI

**AZT027-2008**

**Rəsmi nəşr**

**BAKI – 2008**

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və
Patent üzrə Dövlət Agentliyində
təsdiq edilmişdir
**Əmr №053**
**"05"may 2008-ci il**

Azərbaycan Respublikası Dövlət
Statistika Komitəsinin **16 aprel
2008-ci il** tarixli kollegiya qərarı
ilə təsdiq edilmişdir

# *VALYUTALAR TƏSNİFATI*

---

***Bu təsnifat Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin icazəsi olmadan rəsmi nəşr kimi tam və ya qismən yenidən çap oluna, çoxaldıla və ya yayıla bilməz***

Azərbaycan Respublikasının Maliyyə, İqtisadi İnkişaf və Vergilər nazirlikləri,
Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli kağızlar üzrə Dövlət Komitəsi,
Dövlət Gömrük Komitəsi,
Milli Bank və
Azərbaycan Dövlət İqtisadi Universiteti ilə

**razılaşdırılmışdır**

.

Təsnifat A.M.Vəliyevin rəhbərliyi ilə
R.A.Səlimov, A.H.Mansurov, F.H.Hacıyev, Q.F.Əliyev və R.V.Vəliyev tərəfindən işlənib hazırlanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TƏSNİFATI**

---

**Valyutalar təsnifatı**

**Currency classification**

**AZT027-2008**

---

**Tətbiq edilmə tarixi 2008-06-01**

# GİRİŞ

Bu təsnifat Azərbaycan Respublikasının dövlət statistika sistemində islahatların aparılmasına uyğun olaraq işlənib hazırlanmışdır. Təsnifatın hazırlanmasında əsas məqsəd statistika sahəsində beynəlxalq məlumat mübadiləsi ilə məşğul olan istifadəçilərin işini asanlaşdırmaq və dünya ölkələrində dövriyyədə olan valyutalar barədə onlara mükəmməl informasiya verməkdən ibarətdir. Təsnifatda beynəlxalq valyuta termini barədə əsaslı məlumatlar toplanmışdır. Valyutalar təsnifatının bu nəşri özündə Valyuta və valyuta sərvətləri, Valyutaların təsnifləşməsi, Azərbaycan manatı və Valyutaların siyahısı kimi dörd əsas xətti birləşdirir və hər dörd bölmə haqqında istifadəçiyə ətraflı məlumat çatdırılır. Valyutaların təsnifləşməsi bölməsi öz növbəsində mənsub olma prinsipi, tətbiq etmə dairəsi və rejimi, valyutaların funksional rolu üzrə təsnifləşmə metodlarını izah edir.

Valyutalar təsnifatının siyahı bölməsi 4 əsas sütundan ibarətdir. Birinci sütunda dünya ölkələrinin Birləşmiş Millətlər Təşkilatının Katibliyinin Statistika Şöbəsi tərəfindən hazırlanmış və 1970-ci ildə nəşr olunmuş Birləşmiş Millətlər Təşkilatı ölkələrinin Standart kodlarının[1] (Seriya M, №49) yenidən baxılmış dördüncü variantı əsasında hazırlanmış Dünya ölkələri təsnifatına uyğun 3 rəqəmli kodlar verilmişdir. İkinci sütunda ölkə və ərazilərin adları iki dildə - Azərbaycan və ingilis dillərində verilmişdir. Üçüncü sütunda ölkənin müvafiq valyutasının adı yenə də iki dildə müvafiq olaraq, Azərbaycan və ingilis dillərində göstərilmişdir. Dördüncü sütun isə valyutanın kodu adlanmaqla öz növbəsində iki sütuna ayrılır. Bu sütunlar rəqəmlərlə kodları və hərflərlə valyuta kodlarını göstərir. Milli valyutaların hərflərlə kodları "İSO 3166-1 alpha-2" siyahısı üzrə ölkənin iki hərfli işarəsindən və valyutanın adının bir hərfindən ibarətdir. Dövlətlərarası valyutalar və qiymətli metallar kimi digər aktivlər də "X" hərfi ilə başlanan kodlardan ibarətdir. Qeyri-valyuta sövdələşmələri üçün də "XXX" kodu mövcuddur.

---

[1] Birləşmiş Millətlər Təşkilatının nəşri R.70.XVII. 13 nömrəsi üzrə satışdadır. I və II baxış variantları BMT-nin nəşrləri kimi buraxılaraq R.75.XVII.8 və R.82. XVII.8 nömrələri üzrə satışdadır, III baxış variantı isə satış üçün nəzərdə tutulmamışdır və ST/ESA/STAT/SER.M/49/Rev.3. şərti işarəsi altında nəşr kimi buraxılmışdır.

Qeyd etmək lazımdır ki, 2006-cı ildə Azərbaycan Respublikasında manatın denominasiyası həyata keçirilənədək rəqəmlə 031 və hərflə AZM kodu istifadə edilirdi.

Bütün yuxarıda göstərilənlərə əsaslanaraq hər bir ölkənin valyutası barədə informasiya aşağıdakı nümunə ardıcıllığı ilə verilir:

| **Ölkə və ərazilərin kodu** | **Ölkə və ərazilərin adları** | **Valyutanın adı** | **Valyutanın kodu** | |
|---|---|---|---|---|
| | **Azərbaycan dilində, ingilis dilində** | **Azərbaycan dilində, ingilis dilində** | **Rəqəmlə** | **Hərflə (alfa – 3)** |
| 031 | Azərbaycan<br>Azerbaijan | Azərbaycan manatı<br>Azerbaijanian Manat | 944 | AZN |
| 178 | Konqo<br>Congo | AMC Frankı **<br>CFA Franc BEAC ** | 950 | XAF |

Valyutalar təsnifatının bu nəşri Dövlət Statistika Komitəsinin mərkəzi aparatında, yerli statistika orqanlarında və digər təşkilatlarda çalışan iqtisadi və sosial təsnifatların istifadəçiləri üçün nəzərdə tutulmuşdur.

# VALYUTA VƏ VALYUTA SƏRVƏTLƏRİ

Valyuta (ingiliscə - currency) - əmtəələrin dəyərinin təyin edilməsi üçün istifadə edilən pul vahididir.

Valyuta anlayışı aşağıdakı üç mənada başa düşülür:

1) Digər ölkələrlə beynəlxalq hesablaşmalarda və xarici iqtisadi əlaqələrdə istifadə edilən, müəyyən ölkənin pul vahidi (milli valyuta).
2) Xarici ölkələrin pul nişanları, həmçinin xarici pul vahidləri ilə ifadə olunan və beynəlxalq hesablaşmalarda istifadə edilən kredit və ödəniş sənədləri (xarici valyuta).
3) Beynəlxalq (regional) pul hesablaşma vahidi və ödəmə vasitəsi (SDR, EKÜ (1999-cu ildən Avro ilə əvəz olunmuşdur), ərəb hesablaşma dolları, "and pesosu" və s.).

"Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının 21 oktyabr 1994-cü il tarixli Qanunu "Azəbaycan Respublikasının Milli Valyutası" anlayışını aşağıdakı kimi müəyyən edir:

a) Tədavüldə olan, eləcə də tədavüldən çıxarılan, lakin tədavüldə olan pul nişanlarına dəyişdirilə bilən Azərbaycan Respublikası Milli Bankının buraxdığı kağız və metal pul nişanları;
b) Azərbaycan Respublikasında banklarda və digər kredit təşkilatlarında hesablarda olan manat vəsaiti;
c) Azərbaycan Respublikasından kənarda yerləşən banklarda və digər kredit təşkilatlarında hesablarda olan manat vəsaiti.

Valyuta bazarının fəaliyyəti ilk növbədə ödəmə vasitəsi kimi xarici valyuta və xarici valyuta şəklində ödəmə sənədlərindən istifadə etməklə mülkiyyət hüquqlarının və digər hüquqların valyuta sərvətlərinə keçməsilə; valyuta sərvətlərinin ölkəyə idxalı və ötürülməsi, həmçinin ölkədən ixracı və ötürülməsilə; beynəlxalq köçürmələrin həyata keçirilməsi ilə əlaqədar valyuta əməliyyatlarının aparılmasına əsaslanır.

Yuxarıda qeyd edilən Azərbaycan Respublikası Qanununda "Xarici valyuta" anlayışı aşağıdakı kimi başa düşülür:

- Müvafiq xarici dövlətin və ya dövlətlər qrupunun ərazisində tədavüldə olan və qanuni ödəniş vasitəsi sayılan, eləcə də tədavüldən çıxarılmış və ya çıxarılan, lakin həmin ərazidə tədavüldə olan pul nişanlarına dəyişdirilə bilən banknotlar, xəzinə biletləri və sikkələr şəklində pul nişanları;
- Xarici dövlətlərin pul vahidlərində, beynəlxalq pul və ya hesablaşma vahidlərində hesablarda olan vəsaitlər.

Bu Qanuna uyğun olaraq "Valyuta sərvətləri" aşağıdakıları ifadə edir:

- Xarici valyuta;
- Xarici valyutada qiymətli kağızlar - xarici valyutada ifadə edilmiş ödəniş sənədləri (çeklər, veksellər, akkreditivlər və s.), fond sərvətləri (səhmlər, istiqrazlar) və digər borc öhdəlikləri;

- Qiymətli metallar – istənilən şəkildə, vəziyyətdə, o cümlədən külçə və affinaj olunmuş (saflaşdırılmış, təmizlənmiş halda), habelə xammalda, xəlitələrdə, yarımfabrikatlarda, sənaye məhsullarında, kimyəvi birləşmələrdə, zərgərlik və digər məişət məmulatlarında, sikkələrdə, qırıntılarda, istehsal və məişət tullantılarda olan qızıl, gümüş, platin və platin qrupu metalları (palladium, iridium, osmium, rodium və rutenium);
- Qiymətli daşlar – işlənmiş və işlənilməmiş şəkildə olan təbii almazlar, zümrüdlər, yaqutlar, sapfirlər, aleksandritlər.[2]

[2] Qiymətli metallardan və qiymətli təbii daş-qaşdan hazırlanmış məmulatın, zərgərlik və digər məişət məmulatına, yaxud onların qırıntılarına aid edilməsi qaydası və şərtlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.

# VALYUTALARIN TƏSNİFLƏŞMƏSİ

## *1. Mənsub olma prinsipi üzrə*

Valyutaları mənsub olma prinsipi üzrə müxtəlif növlərə ayırmaq olar:

- milli valyuta;
- xarici valyuta;
- beynəlxalq (regional) valyuta:
  - SDR;
  - EKÜ (1999-cu ildən Avro ilə əvəz olunmuşdur);
  - ərəb dinarı, and pesosu;
- ehtiyat valyuta.

**Ehtiyat valyuta** (ingiliscə - reserve currency) – xarici valyutadır. Digər ölkələrin mərkəzi bankları xarici investisiyalar və xarici ticarət əməliyyatları üzrə beynəlxalq hesablaşmalar üçün ehtiyatları xarici valyuta şəklində toplayır və saxlayırlar.

Əvvəllər beynəlxalq hesablaşmalarda hakim rol oynayan funt sterlinq ehtiyat valyuta rolunu yerinə yetirirdi. Bretton-Vudsda (ABŞ, 1944-cü il) keçirilmiş konfransın qərarı ilə beynəlxalq ödəmə və ehtiyat valyuta kimi funt sterlinqlə yanaşı ABŞ dollarından da istifadə edilməyə başlandı. Tez bir zamanda ABŞ dolları beynəlxalq hesablaşmalarda hakim mövqe tutdu. Ehtiyat valyutaya həmçinin isveçrə frankı və yapon ienası aiddir. Buna baxmayaraq əksər ölkələrin valyuta ehtiyatlarının böyük hissəsi ABŞ dollarının payına düşür.

Ehtiyat valyuta müvafiq milli valyutanın konvertasiya edilməsini, onun məzənnəsinin kifayət qədər sabitliyini, bu valyutanın digər ölkələrdə və beynəlxalq mübadilədə istifadə edilməsinin əlverişli hüquqi rejimini ifadə edir. Valyutası ehtiyat valyuta kimi istifadə edilən ölkələr xarici borcların alınmasında, əmtəələrin idxalında müəyyən mənfəət əldə edirlər və xarici iqtisadi genişlənmənin həyata keçirilməsi üçün üstün şəraitlərə malikdirlər.

Ölkənin valyuta ehtiyatlarının əsas hissəsini qızıl və xarici valyutanın mərkəzləşdirilmiş ehtiyatları, Beynəlxalq Valyuta Fondunda (BVF) yerləşdirilmiş SDR tipli beynəlxalq valyuta-ödəmə vasitələri və ölkənin ehtiyat valyutası təşkil edir.

Beynəlxalq valyuta, regional valyutalar da daxil olmaqla beynəlxalq birliklərin, beynəlxalq fondların və ya regional birliklərin üzvləri arasında hesablaşmalarda istifadə edilir. Hal-hazırda dünya ticarətinin ayrı-ayrı sektorlarında beynəlxalq valyuta qismində SDR-dən istifadə edilir.

***Xüsusi borcalma hüquqları (SDR)*** (ingiliscə - special drawing rights) – Beynəlxalq Valyuta Fondu tərəfindən buraxılan və xüsusi hesablarda qeydlər aparmaqla nağdsız beynəlxalq hesablaşmalarda və BVF-in hesab vahidi qismində istifadə edilən beynəlxalq ödəmə və ehtiyat vasitəsidir.

1969-cu ildə BVF beynəlxalq likvidliyin daimi defisitinin artan təhlükəsini nəzərə alaraq, həmçinin dünya ticarətinin genişlənməsi və qızıl

istehsalının məhdudluğu səbəbindən SDR – süni valyutasının yaradılması haqqında qərar qəbul etdi. SDR əsas ehtiyat valyuta kimi ölkənin ödəmə balansını təmin etmək üçün yaradılmışdır. SDR-in ilk buraxılışı üç mərhələ üzrə 1970-1972-ci illər arasında 9,5 milyard dollar həcmində həyata keçirilmişdir.

Ehtiyac olduqda iqtisadi siyasət sahəsində öz üzərinə hər hansı ilkin şərtləri qəbul etməklə ölkə öz SDR kvotasını BVF tərəfindən göstərilən valyutaya dəyişə bilər. Ölkə beş illik dövr müddətində ayrılmış SDR-in təxminən 70%-nin istifadəsi şərtlərini yerinə yetirməlidir. SDR ilə dəyişmək üçün öz şəxsi valyutasını və ya digər ölkənin valyutasını təqdim etməli olduğuna görə ölkə faktiki olaraq SDR alırdı.

Əvvəllər SDR-in dəyəri qızıl ekvivalentdə müəyyən edilirdi (1 SDR = 0, 888671 qr. saf qızıl), lakin 1974-cü ilin 1 iyunundan SDR-i 16 valyuta "səbətinin" orta çəkilmiş dəyərinə nisbətən müəyyən etməyə başladılar (ABŞ dolları – 33%, AFR markası – 12,5%, funt sterlinq – 9%, fransa frankı – 7,5%, yapon ienası – 7,5%, kanada dolları – 6%, italiya lirəsi – 6%, holland quldeni – 4,5%, belçika frankı – 3,5%, isveçrə kronu – 2,5%, avstraliya dolları, danimarka kronu, norveç kronu, ispan peseti – hər biri 1,5%, avstriya şillinqi və CAR rendi – hər biri 1%).

1 iyul 1974-cü il tarixi vəziyyətinə SDR-in qiyməti 1,2063 ABŞ dolları təşkil edirdi. Sonradan BVF SDR-in dollar qiymətinin gündəlik təyin edilməsi təcrübəsini tətbiq etdi. Hal-hazırda SDR-in məzənnəsi 4 əsas valyutanın səbəti ilə müəyyən edilir (ABŞ dolları, yapon ienası, avro və funt sterlinq).

Ölkənin SDR-dəki avuarları onun təxsisatlarından çox olarsa ölkə faiz əldə edir və əksinə SDR-dəki avuarları onun təxsisatlarından az olarsa ölkə faiz ödəyir.

SDR-dən yalnız rəsmi sazişlərin keçirilməsi üçün ödəmə vasitəsi kimi deyil, həmçinin müəyyən dərəcədə ticarət məqsədləri üçün istifadə etməyə başladılar. Belə ki, 1975-ci ildə ilk dəfə olaraq, SDR-də denominasiya edilmiş xüsusi təminatsız istiqraz vərəqələri meydana çıxdı və 1977-ci ildən başlayaraq Nəqliyyat aviasiyası beynəlxalq assosiasiyasının orqanları daşınmanın və yük tariflərinin ödənişi üçün SDR-dən istifadə etməyə başladılar. Misir Süveyş kanalında rüsumların fiksasiyası üçün SDR tətbiq edir.

SDR ödəmə balanslarının tənzimlənməsi, rəsmi valyuta ehtiyatlarının artırılması, milli valyutaların qiymətinin müqayisəsi üzrə dünya pullarının bir sıra funksiyalarını yerinə yetirir, lakin fərdi dəyər və real təminata malik deyil.

1970-ci ilin yanvar ayında ilk SDR-lərin buraxılışından sonra və 1979-1981-ci illərdəki ikinci buraxılışı nəzərə alaraq hal-hazırda 21,3 milyard SDR mövcuddur. SDR-in bölgüsü BVF-də ölkələrin kvotasına mütənasib olaraq avtomatik həyata keçirilir.

SDR-in istifadəsi ilə əlaqədar mübadilə əməliyyatlarında riskin azaldılması məqsədilə xüsusi valyutalar yaradılmışdır. 90-cı illər ərəfəsində bunlardan ən geniş yayılanı EKÜ (avropa valyuta vahidi) olmuşdur.

***EKÜ*** – (ingiliscə - European Currency Unit) – Avropa valyuta sisteminin iştirakçı ölkələri tərəfindən 1979-cu il 13 mart tarixindən etibarən istifadə edilən regional beynəlxalq valyuta vahidini təşkil edirdi. EKÜ-nün yaradılması valyuta sferasında inteqrasiyaya səbəb olmaq, ABŞ dollarının təsirinə əks təsir göstərmək və Avropa İqtisadi Birliyinin (AİB) vahid valyuta bazarının formalaşmasının zəminini təmin etmək məqsədi daşıyırdı.

EKÜ AİB-nin 12 iştirakçı ölkəsinin milli valyutalarının mövcud valyuta səbətinin əsasında hesablanan müəyyən valyuta məzənnəsinə malik idi. Ayrı-ayrı ölkələrin səbətdəki payları mütamadi təsbit edilirdi. Səbətdəki hər bir valyutanın çəkisi ölkənin Aİ-nin (Avropa İttifaqının) ümumi milli məhsulunda və ittifaq daxilində ixraca malik olduğu payından asılı olaraq müəyyən edilirdi. 1 EKÜ təxminən 1,3 ABŞ dollarına bərabər idi. SDR-dən fərqli olaraq rəsmi EKÜ-lərin emissiyası qismən qızıl və dollarla nağdlaşdırılmışdır. EKÜ-nün emissiya həcmi SDR buraxılışından çox idi. EKÜ SDR kimi nağdsız formada təqdim edilmişdir. Belçika xəzinəsi tərəfindən 1987-ci ildə Roma müqaviləsinin 30 illiyinə həsr edilmiş 50 EKÜ (qızıl) və 5 EKÜ (gümüş) dəyərində buraxılmış yubiley sikkələr kolleksiya mahiyyəti daşıyırdı və valyuta bazarı üçün praktik əhəmiyyət daşımırdı. Buraxılmış EKÜ-lərin yarısı qızıl və dollar ehtiyatlarından ayırmalardan və qalan hissəsi ölkələrin milli valyutaları ilə təmin edilmişdir. EKÜ 1999-cu ildən Avro ilə əvəz olunmuşdur.

Avronun tətbiq edilməsi 1991-ci ilin dekabr ayında Avropa İttifaqı üzv ölkələri başçılarının İqtisadi və Valyuta Birliyinin (İVB) yaradılmasını və vahid valyutanın tətbiq edilməsini nəzərdə tutan Maastrixt razılaşmasının qəbul edilməsi ilə başlandı. 1 yanvar 1999-cu il tərixində İVB üzv ölkələri yeni Avro vahid valyutasını tətbiq etdi və Avro 1:1 nisbətində EKÜ-nü əvəz etdi. 1 yanvar 2002-ci il tarixində Avronun banknotları və sikkələri tədavülə buraxıldı.

### *2. Tətbiq etmə dairəsi və rejimi üzrə*

Valyutaların təsnifləşdirilməsinin digər əsası tətbiq etmə dairəsi və rejimidir. Bundan asılı olaraq valyuta sərbəst dönərli, qismən dönərli və konvertasiya edilməyən valyutaya bölünür.

***Sərbəst dönərli valyuta*** (ingiliscə - hard currency) – hər hansı formada və bütün növ əməliyyatlarda digər xarici valyutalara və beynəlxalq ödəmə vasitələrinə sərbəst və məhdudiyyətsiz mübadilə edilən pul vahidləridir.

Qızıl standartının qüvvədə olduğu dövrdə sərbəst olaraq qızıla dəyişdirilə bilən valyuta avtomatik olaraq dönərli valyutaya çevrilirdi. 70-ci illərin əvvəlində bütün valyutaların və onların qızıl paritetlərinin qızıl ilə təminatının ləğv edilməsindən sonra konvertasiya sərbəst olaraq satılmaq və alınmaq, mövcud valyuta məzənnəsi ilə mübadilə edilmək, müxtəlif növ maliyyə aktivlərinin yaradılması üçün istifadə edilmək qabiliyyəti kimi başa düşülür.

Beynəlxalq Valyuta Fondu bu və ya digər ölkənin valyutasının sərbəst konvertasiya edilmiş şəkildə istifadə edilməsini bəyənir və razılıq verir. Bu o

deməkdir ki, sərbəst dönərli valyuta bütün növ beynəlxalq bank və maliyyə əməliyyatlarında rezidentlər və qeyri-rezidentlər tərəfindən istifadə edilə bilər. 1976-cı ildə Beynəlxalq Valyuta Fondu ABŞ dolları, alman markası, funt sterlinq, yapon ienası və fransa frankına "sərbəst istifadə edilən valyutalar" kvalifikasiyası vermişdir və bununla da onların konvertasiya edilməsinin yüksək səviyyəsini vurğulamışdır. Hal-hazırda ABŞ dolları, funt sterlinq, yapon ienası və avro tamamilə dönərli valyutalar kimi qəbul edilmişdir. Bu valyutalardan beynəlxalq hesablaşmalarda daha çox istifadə edilir və dünya valyuta bazarında hər zaman kifayət miqdarda mövcuddur və dünya ölkələrinin valyuta ehtiyatlarında toplanılır. Sərbəst dönərli valyutanın fəaliyyət rejimi təcrübədə hər hansı valyuta məhdudiyyətlərinin olmadığını göstərir.

Valyutanın konvertasiya dərəcəsi birbaşa ölkənin iqtisadi potensialından, onun xarici iqtisadi fəaliyyətinin miqyasından, daxili pul dövriyyəsinin davamlılığından, milli əmtəə və pul bazarının və kapital bazarının inkişaf dərəcəsindən asılıdır. Bundan başqa konvertasiya edilmənin saxlanılmasının əsas şərti ABŞ dolları və ya xarici valyutaların hər hansı müəyyən səbətinə nisbətən öz milli valyuta məzənnəsinin optimal səviyyədə saxlanılması üçün ölkənin mərkəzi bankının valyuta müdaxilələrində daimi iştirakıdır.

***Qismən dönərli valyuta*** (ingiliscə - partially convertible currency) – bu müəyyən pul sahibləri üçün və həmçinin mübadilə əməliyyatlarının ayrı-ayrı növləri üzrə bu və ya digər dərəcədə konvertasiya edilməsi məhdudlaşdırılan ölkənin milli valyutasıdır. Valyutanın bu növü yalnız bəzi xarici valyutalarla mübadilə edilir və ondan bütün xarici ticarət sazişlərində istifadə edilmir. Bu qrupa inkişaf etmiş və inkişaf edən ölkələrin çox hissəsinin valyutaları daxildir. Konvertasiya edilmə dərəcəsi dövlət tərəfindən xüsusi aktlarla müəyyənləşdirilir. Qanunla milli valyuta ilə mübadilə edilə bilən xarici valyutaların siyahısı və qaydası, həmçinin belə mübadilənin miqdarı müəyyən edilir, valyuta bazarlarında valyutanın alqı-satqısına icazə verilir, belə sazişlərin subyekt dairəsi göstərilir (yəni rezidentlər, qeyri-rezidentlər, bu və ya digər müəssisələr, banklar, beynəlxalq təşkilatlar və s.). Qanun həmçinin valyuta mübadiləsi əməliyyatlarının məhdudlaşdırma dairəsi və dərəcəsini, onların şərtlərini və qaydasını nizamlayır. Birinci növbədə bu xarici ticarət sazişlərinə, valyutanın alqı-satqısına, valyuta hesablarının açılmasına və s. aiddir.

Valyutanın istifadəsi ilə bağlı tərəflərin dairəsinin genişliyindən və əməliyyatlardan asılı olaraq, yalnız xarici fiziki və hüquqi şəxslərə və yalnız cari hesablaşmalara aid edilən xarici konvertasiya edilmə anlayışı mövcuddur.

Həmçinin milli valyutanın daxili konvertasiya edilmə anlayışı mövcuddur. Bu müəyyən ölkənin vətəndaşları və təşkilatları üçün xarici valyutanın milli valyuta ilə alınmasını həyata keçirmək və məhdudiyyət olmadan xarici ticarət sazişlərini ödəmək imkanını nəzərdə tutur.

***Konvertasiya edilməyən valyuta*** (ingiliscə - inconvertible currency) – ölkədə fəaliyyət göstərən və xarici valyutalara sərbəst dəyişdirilməyən və ya dövlətin qoyduğu valyuta nəzarətinin şərtləri ilə bağlı olaraq ölkədən kənara

çıxarılmayan milli valyutadır. Qapalı valyutalara xarici valyutanın alışına və satışına, milli və xarici valyutanın idxalına və ixracına müxtəlif məhdudiyyətlər və qadağalar və həmçinin valyuta tənzimləməsinin digər ölçülərini tətbiq edən ölkələrin valyutaları aiddir. Valyuta məhdudluğunun əsas səbəbləri valyutanın çatışmazlığı, xarici borcun təzyiqi, ödəmə balanslarının ağır vəziyyətidir. Qeyd etmək lazımdır ki, Beynəlxalq Valyuta Fonduna üzv ölkələrin çoxunda birinci növbədə cari əməliyyatlar üzrə beynəlxalq hesablaşmalarla, həmçinin investisiyaların hərəkəti ilə bağlı bəzi valyuta məhdudiyyətləri yayılmışdır. Valyuta məhdudiyyətləri BVF-ə yaxınlarda daxil olunmuş ölkələrdə daha geniş tətbiq edilmişdir. Bu ilk növbədə Şərqi Avropa ölkələri və MDB dövlətləridir. Bu ölkələrdə valyuta məhdudiyyətləri onların bazar münasibətlərinə keçməsi, valyuta tənzimlənməsi sahəsində iqtisadi vasitələrin daha səmərəli tətbiq edilməsi və milli valyutanın ilk öncə daxili, sonra isə ümumi konvertasiya edilməsinə keçməsi ilə tədricən azaldılacaqdır.

### *3. Valyutaların funksional rolu üzrə*

Valyuta əməliyyatları (xarici ticarət müqavilələri, valyuta kreditləri, valyutanın alqı-satqısı, ölkələr arasında ikitərəfli hesablaşmalar – klirinq və s.) həyata keçirilərkən bu əməliyyatlarda istifadə edilən bu və ya digər valyutaların funksional rolunu və vəziyyətini xarakterizə edən müəyyən terminlərin seçilməsi zərurəti yaranır. Bu baxımdan valyuta münasibətlərində aşağıdakı terminlərdən istifadə edilir: *qiymət valyutası, ödəniş valyutası, kreditin valyutası, kredit ödənmə valyutası, veksel valyutası, klirinq valyutası və s.*

***Qiymət valyutası*** (həmçinin saziş valyutası adlandırılır) – bu ixracçı və idxalçı arasında razılaşdırılan və xarici ticarət müqavilələrində qeyd edilən ödəniş valyutası ilə bağlı şərtlərdən biridir və xarici ticarət müqaviləsində əmtəənin qiymətinin hansı pul vahidində ifadə olunduğu və ya verilmiş beynəlxalq kreditin məbləğinin hansı pul vahidində müəyyən olunduğunu göstərir. İxracçı və idxalçının, kreditor və ya borc alanın valyutası, həmçinin üçüncü ölkələrin valyutası və ya hər hansı beynəlxalq hesab vahidi (SDR) qiymət valyutası ola bilər. Adətən xarici ölkələrin təşkilatları və firmaları ilə beynəlxalq müqavilələrdə qiymət valyutası kimi bir sıra dönərli valyutalardan (əksər hallarda ABŞ dolları, funt sterlinq, avro, isveçrə frankı, yapon ienası) istifadə edilir. Müqavilənin qiymət valyutası haqqında razılaşma ödəniş valyutasının məzənnəsinin dəyişməsi riskinin sığortalanması məqsədilə həyata keçirilir.

***Ödəniş valyutası*** – xarici iqtisadi sazişlərdə əmtəə və xidmətlərin və beynəlxalq kreditlərin faktiki ödənişini həyata keçirən valyutadır. Ödəniş valyutası ixracçı və idxalçı arasında razılaşdırılmış ixtiyari valyuta ola bilər. İnkişaf etmiş qərb ölkələri ilə iqtisadi-ticarət əlaqələrində sərbəst dönərli valyutalarla hesablaşmalarda bir qayda olaraq bu ölkələrin milli valyutalarından

istifadə edilir. İnkişaf etməkdə olan ölkələr arasında ticarət əməliyyatlarında inkişaf etmiş ölkələrin valyutalarından istifadə olunur.

Ödəniş valyutası saziş valyutası ilə üst-üstə düşə bilər, lakin ondan fərqlənə də bilər. Ödəniş valyutasının saziş valyutasından fərqləndiyi halda müqavilədə saziş valyutasının ödəniş valyutasına yenidən hesablanması məzənnəsinin müəyyən edilməsi qaydaları nəzərdə tutulur və aşağıdakılar göstərilir:

1) yenidən hesablanmanın tarixi (ödəniş gününün və ya ödəniş edilən gündən əvvəlki günün);

2) kotirovkaları əsas kimi qəbul edilən valyuta bazarı;

3) adətən alıcı və satıcının məzənnələri arasındakı orta məzənnə (və ya onlardan biri).

***Kreditıtin valyutası*** kreditlərin təqdim olunduğu pul vahidlərini göstərir. Adətən kreditlər krediti təqdim edənin və ya kredit alanın milli valyutalarında təqdim edilir, lakin son illərdə kreditlər beynəlxalq hesablaşma vahidləri və ya üçüncü ölkələrin valyutalarında təqdim edilir. Nəticədə kreditin valyutasının seçimi danışıqlar obyekti olur. Kreditin valyutasının vəziyyəti kreditlər üzrə faiz dərəcələrinin səviyyəsinə və sazişin dəyərinə bilavasitə təsir göstərir. Bu "güclü" və "zəif" adlanan valyutaların mövcudluğu ilə əlaqədardır. Əgər kredit, məzənnələri enməyə ümumi tendensiyaya malik "zəif" valyutalarda təqdim edilirsə o zaman borcun qiymətinin azalması ilə əlaqədar olaraq kreditorlar müəyyən itkilər riski ilə üzləşir. Əgər kredit, məzənnələri daim olaraq artan "güclü" valyutalarda təqdim edilirsə o zaman borcun məbləğinin artması ilə əlaqədar olaraq borc alan tərəf itkilər riski ilə üzləşir.

Kreditin valyutası ödəniş valyutası ilə üst-üstə düşməyə bilər. Kreditin valyutasının ödəniş valyutası ilə üst-üstə düşmədiyi halda kredit müqaviləsində həmçinin bir valyutanın digərinə köçürülməsi qaydaları nəzərdə tutulur.

***Kliring valyutası*** göstərilən xidmətlərin və əmtəə təchizatlarının dəyər bərabərliyindən irəli gələn qarşılıqlı tələb və öhdəliklərin mütləq zaçotu (qeydi) barəsində hökumətlərarası sazişlərin yerinə yetirilməsi zamanı istifadə edilir. Kliring üzrə hesablaşmalarda ödəniş valyutası kliring valyutası ilə üst-üstə düşür. Kliring valyutasının sistemi hökumətlərarası sazişlərdə qeyd edilən bir sıra vacib elementlərin mövcudluğunu nəzərdə tutur: kliring hesablarının sistemini, kliringin həcmini, kliring valyutasını, ödənişlərin tarazlaşdırılması sistemini, sərbəst dönərli valyuta ilə hesablaşmalara keçməklə hökumətlərarası kliring sazişinin müddətinin qurtarmasından sonra borcun tamamilə ödənilməsi sxemini.

***Veksel valyutası*** – veksel şəklində çıxarılan pul vahididir. Adətən daxili dövriyyədə veksellər ölkənin valyutasında və beynəlxalq dövriyyədə borc alan ölkənin, kreditor və ya üçüncü ölkənin valyutasında çıxarılır. Veksel - yazılı şəkildə borc öhdəliyini ifadə edən qiymətli kağızların növündən, müasir şəraitdə beynəlxalq ticarətdə istifadə edilən kredit vermənin və hesablaşmaların ən mühüm vasitələrindən biridir.

1930-cu il tarixli veksellər haqqında Cenevrə konvensiyasına uyğun olaraq veksel vacib rekvizitlərə malik olmalıdır: veksel nişanı; müəyyən məbləğin ödənilməsi haqqında şərtsiz əmr və ya öhdəlik; ödəyicinin və ilk sahibin adı; ödənişin müddəti və yeri; sənədin tərtib edildiyi tarix və yer; veksel verənin imzası.

# AZƏRBAYCAN MANATI

Azərbaycan Respublikasının milli valyutası olan manat 1992-ci ildə dövriyyəyə buraxılmışdır.

1992-ci ilin avqustunda 1, 10 və 250 manatlıq, noyabrında 5, 10, 20 və 50 qəpiklər, dekabrında 5 manatlıq, 1993-cü ilin martında 50, 100, 500 və 1000 manatlıq, 1994-cü ildə 10000 manatlıq və 1996-cı ildə isə ən böyük nominala malik 50000 manatlıq nominallı pul vahidləri dövriyyəyə buraxılmışdır.

1992-ci ilin avqustundan etibarən manat öz nominal dəyəri ilə respublika ərazisində 1 manat = 10 sovet rublu nisbətində sovet rubluna paralel olaraq dövriyyədə ödəniş vasitəsi kimi istifadə olunmağa başlanmışdır.

Yalnız Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası milli valyutasının Respublika ərazisində yeganə ödəniş vasitəsi elan olunması haqqında" 11 dekabr 1993-cü il tarixli, 50 saylı Fərmanı ilə əlaqədar 1 yanvar 1994-cü il tarixindən manatın dövriyyədə yeganə ödəniş vasitəsi olması təsbit olunmuşdur.

Manatın ölkə ərazisində yeganə ödəniş vasitəsi olması o zaman Azərbaycan Respublikasının Prezidenti, ümummilli lider Heydər Əliyevin sədrliyi ilə yaradılmış Dövlət komissiyası tərəfindən hazırlanmış və 1995-ci ilin 12 noyabr tarixində ümumxalq səsverməsi yolu ilə keçirilmiş referendumda qəbul olunmuş Konstitusiya aktı ilə bir daha öz təsdiqini tapmışdır.

Azərbaycanda 1992-2005-ci illərdə nağd pul dövriyyəsinin tarixi xülasəsinə nəzər saldıqda qeyd etmək lazımdır ki, aluminiumdan hazırlanmış 5, 10, 20 və 50 qəpik olan sikkələr qısa müddət ərzində dövriyyədə olmuşdur. Lakin 1992-ci ildə ölkədə baş verən iqtisadi böhran, manatın məzənnəsinin kəskin aşağı düşməsi nəticəsində bu sikkələr qısa bir zamanda dəyərsizləşdirilərək istifadəsiz qalmışdır.

“Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli Fərmanına müvafiq olaraq Azərbaycan Respublikasında manatın denominasiyası həyata keçirilmişdir və 1 yeni manat (1 AZN) köhnə 5000 manata (5000 AZM) bərabər tutularaq dövriyyəyə 1, 5, 10, 20, 50, 100 manatlıq kağız əskinaslar və 1, 3, 5, 10, 20, 50 qəpiklik metal sikkələr buraxılmışdır.

Hal-hazırda Azərbaycan Respublikası ərazisində yeganə ödəniş vasitəsi kimi manatdan istifadə edilir.

## Valyutalar təsnifatı

| Ölkə və ərazilərin kodu | Ölkə və ərazilərin adları | Valyutanın adı | Valyutanın kodu | |
|---|---|---|---|---|
| | Azərbaycan dilində, ingilis dilində | Azərbaycan dilində, ingilis dilində | Rəqəmlə | Hərflə (alfa – 3) |
| 031 | Azərbaycan<br>Azerbaijan | Azərbaycan manatı<br>Azerbaijanian Manat | 944 | AZN |
| 008 | Albaniya<br>Albania | Lek<br>Lek | 008 | ALL |
| 276 | Almaniya<br>Germany | Avro<br>Euro | 978 | EUR |
